

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 noyabr 2022-ci il №85 (2696) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyevin Rusiyanın Soçi şəhərinə işgüzar səfəri

*Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfərə gəlib.*



Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilib.

Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısını qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Rusiya Prezidenti **Vladimir Putin** deyib:

- Hörmətli İlham Heydər oğlu!

Sağ olun ki, bizə, Soçiyə gəlmisiniz. Əslində, bu görüş Sizin və Ermənistanın baş nazirinin təşəbbüsü ilə, özü də məhz Soçidə təşkil edilib. Görünür, Siz Soçidə havanın yaxşı olacağını nəzərdə tutmusunuz, lakin belə olmadı, payızdır. Bununla belə, mənim fikrimcə, bu görüş əhəmiyyətlidir, vacibdir.

Mən hesab edirəm ki, bu görüşün məqsədi bizim 2020-ci və 2021-ci illərdə nail olduğumuz bütün razılaşmaların yerinə yetirilməsini təmin etməkdir. Siz dəfələrlə qeyd etmisiniz ki, Rusiya münaqişənin nizamlanmasında nəzərəçarpacaq, mühüm rol oynayıb. Hazırda bizim sülhməramlı kontingentimiz öz missiyasını necə yerinə yetirməli idisə, elə də yerinə yetirir. Bu dəyərləndirmənizə görə Sizə təşəkkür edirəm.

Bu gün isə, əlbəttə, bugünkü vəziyyətdə yaranmış şərait barədə danışmaq, hələ həll edilməmiş məsələlərin həlli yollarını axtarmaq lazım gələcək. Bununla əlaqədar mən iqtisadi xarakterli mühüm tərkib hissəni qeyd etmək istərdim: biz üçtərəfli işçi qrupu yaratmışıq, ona baş nazirlərin müavinləri rəhbərlik edirlər. Bizim əvvəllər, hələ iki il bundan qabaq haqqında danışdığımız məsələlərin həlli baxımından onlar kifayət qədər irəliləyiblər. Görünür, burada da əlavə impuls vermək lazımdır. Bilirəm ki, Azərbaycan tərəfi bu istiqamətdə kifayət qədər fəal işləyir.

Gündəlikdəki məsələlərin əhatə dairəsi kifayət qədər genişdir, Sizi görməyə çox şadam. Xoş gəlmisiniz.

* * *

Azərbaycan Prezidenti **İlham Əliyev** deyib:

- Sağ olun, hörmətli Vladimir Vladimiroviç. Dəvətə görə təşəkkür edirəm. Yenidən görüşməyimizə şadam. Biz Sizinlə keçən ayda da, bu ayda da görüşmüşük, ikitərəfli münasibətləri kifayət qədər ətraflı müzakirə etmək və bu münasibətlərdə müsbət dinamikanı qeyd etmək imkanımız olub.

Bugünkü görüş bizim regional məsələlərə həsr edilib. Qarabağ münaqişəsinin nizamlanmasında oynadığınız rola görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. İki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyannamə çoxillik münaqişəyə son qoydu. İndi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışmaq və hərəkət etmək vaxtı yetişib. Əlbəttə, biz bu məsələdə Sizin şəxsi rolunuzu yüksək qiymətləndiririk. Bir qədər sonra keçiriləcək bugünkü üçtərəfli görüş bizim ilk görüşümüz olmayacaq. Sizin təşəbbüsünüzlə bu cür görüşlər keçirilib və görürəm ki, normallaşma prosesinə çox yaxşı impuls verib. Azərbaycan nisbətən yaxın vaxtlarda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Bunlar beynəlxalq hüququn fundamental prinsipləridir və mənim fikrimcə, bu əsasda normallaşmaya nail olmaq mümkündür.

Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması isə, əlbəttə, çox ciddi addımlar tələb edən formatdır. Biz bu məqsədlərə nail olmaq işində bundan sonra da şəxsən Sizin fəal roluNuza və Rusiyanın roluna ümid bəsləyirik. Dəvətə görə bir daha sağ olun.

Prezident **Vladimir Putin**: Təşəkkür edirəm.

* * *

Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

Görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** deyib:

- Hörmətli həmkarlar, bu gün biz üç sessiyadan ibarət danışıqlar apardıq. Əvvəlcə, Ermənistan nümayəndə heyəti ilə, sonra isə Ermənistanın baş naziri ilə təkbətək danışdıq. Daha sonra Azərbaycan nümayəndə heyəti ilə və Azərbaycan Prezidenti ilə təkbətək danışdıq və sonra iki saat, bəlkə də bir qədər artıq müddətdə üçlükdə söhbət etdik. Bizim ümumi fikrimizə görə bu görüş çox faydalı oldu. Məncə bu görüş bəzi prinsipial məsələlər barədə gələcəkdə mümkün razılaşmalar üçün çox yaxşı ab-hava yaratdı.

Bu gün biz birgə Bəyanatı razılaşdırdıq. Açıq deməliyəm, hər şeyi razılaşdırmaq mümkün olmadı. Əvvəlcədən mütəxəssislər səviyyəsində işlənmiş mətndən bəzi hissələri çıxarmalı olduq. Bununla belə, mən ümumi rəylə razıyam ki, görüş faydalı oldu və bu, bütövlükdə vəziyyətin nizamlanması istiqamətində sonrakı addımlar üçün şərait yaradır. Özü də mən bütövlükdə deyəndə həm yaxın keçmişə aid cari hadisələri, həm də iki il bundan əvvəl baş vermiş hadisələri nəzərdə tuturam. Hər halda, o vaxt biz prinsipial məsələlər barədə razılığa gəlməyə nail olduq. Bugünkü diskussiya onu göstərir ki, biz bütün ölkələrimizin gələcəyi barədə də razılığa gələ bilərik. Mən bizim bütün ölkələr dedikdə həm Rusiyanı, həm Azərbaycanı, həm Ermənistanı, həm də bütün region ölkələrini nəzərdə tuturam. Ona görə ki, bu ərazidə yaşayan bütün xalqlar münasibətlərin normallaşmasında maraqlıdırlar. Rusiya öz tərəfindən, qəti və hərtərəfli nizamlamaya nail olmaq üçün nə mümkündürsə edəcək.

Çox sağ olun. Mən öz həmkarlarıma - həm Ermənistanın baş nazirinə, həm də Azərbaycanın Prezidentinə təşəkkür etmək istəyirəm ki, siz Rusiyaya, Soçiyə gəlməyə və bugünkü diskussiyanı aparmağa razılaşdınız. Razılaşdığımız kimi biz əlaqə saxlayacağıq, bu dialoqu və uzun müddət davam edən bu münaqişəyə nöqtə qoymaq üçün zəruri həllərin axtarışını davam etdirəcəyik.

Çox sağ olun, təşəkkür edirəm.

* * *

Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar.

AZƏRTAC bəyanatı təqdim edir.

**"Azərbaycan Respublikası Prezidentinin,**

**Ermənistan Respublikası baş nazirinin və**

**Rusiya Federasiyası Prezidentinin Bəyanatı**

**31 oktyabr 2022-ci il**

Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2022-ci il oktyabrın 31-də Soçi şəhərində görüşdük və 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların həyata keçirilməsinin gedişatını müzakirə etdik.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevin Rusiyanın Soçi şəhərinə işgüzar səfəri



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduğumuzu təsdiq edtik. Qalan məsələlərin, o cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşdıq.

Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə mühüm töhfəsini qeyd edərək onun regionda vəziyyətin sabitləşməsinə yönəlmiş səylərinə ehtiyac olduğunu vurğuladıq.

Güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəldik.

Regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğuladıq. Mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışını davam etdirmək barədə razılaşdıq. Rusiya Federasiyası buna hər vasitə ilə kömək göstərəcək.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyini vurğuladıq.



Azərbaycan Respublikasının və Ermənistan Respublikasının liderləri Rusiya Federasiyasının bundan sonra da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sabitliyin və tərəqqinin təmin edilməsinə hərtərəfli şərait yaratmağa hazır olmasını alqışladılar.



Azərbaycan Respublikasının
Prezidenti
İlham Əliyev

Ermənistan Respublikasının
baş naziri
Nikol Paşinyan

Rusiya Federasiyasının
Prezidenti
Vladimir Putin"

* * *

Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfəri başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Komando hərbi hissəsində taktiki-xüsusi təlim keçirilib



Quru Qoşunlarının döyüş hazırlığı planına əsasən, Əməliyyat (Komando) hərbi hissəsinin şəxsi heyəti ilə taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına uyğun olaraq əldə edilən kəşfiyyat məlumatına əsasən şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyənləşdirilib. Mümkün təxribatın qarşısının alınması məqsədilə komandolar daimi dislokasiya məntəqəsini tərk edərək əməliyyat rayonu istiqamətində hərəkət ediblər.

Əməliyyat rayonunun dərinliyinə sızan komandolar şərti düşmənin müvəqqəti sığınacaqlarının müəyyən olunaraq mühasirəyə alınması və zərərsizləşdirilməsi tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər.

Keçirilən təlimdə əsas diqqət şəxsi heyətin dağlıq ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsinə, atıcı silahlardan istifadəetmə bacarıqlarının artırılmasına, eləcə də Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəldilib.

*Nümunəvi xidmət*

## “Seçdiyimiz peşələrə uyğun olaraq hər birimiz Vətənimizə xidmət edirik”

*"N" hərbi hissəsinin avtomobil parkında UAZ markalı avtomobilə böyük həvəslə texniki qulluq göstərən hərbi qulluqçumuz diqqətimizi cəlb etdi. Əvvəl çilingər olduğunu düşündüm. Kapitan Mustafa Alıyev ona yaxınlaşaraq avtomobilin texniki vəziyyətində bir problemin olub-olmadığını soruşanda sürücü olduğunu yəqin etdim. O, əminliklə avtomobilin tam saz vəziyyətdə olmasını və istənilən zaman yola çıxmağa hazır olduğunu bildirdi.*

Avtomobilə əyləşib yüksəkliklərdə yerləşən mövqelərimizə yollandıq. İlan kimi qıvrılan, zirvələrə doğru uzanan yollarla irəlilədikcə sürücünün peşəkarlığını hiss etdim. Yolumuz uzaq olduğundan imkan tapıb onunla tanış oldum. Öyrəndim ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Cavadov Amin Goranboy rayonundandır. Hələ uşaq vaxtlarından avtomobillərə olan marağı onun həyatının bir parçasına çevrilərək sürücü peşəsinə yiyələnməsinə səbəb olub. "Avtomobili idarə etmək çətin deyil. Hər kəs bu vərdişlərə yiyələnə bilər. Ancaq əsl sürücü öz məsuliyyəti, peşəkarlığı, təmkini ilə digərlərindən seçilməlidir. Hərbi sürücü olmaq isə bu məsuliyyəti ikiqat artırır. Bu, bir dəmir parçasıdır, hərəkətdə olduğun zaman çox hadisələr baş verə bilər. Gözlənilmədən qəfil yaranan nasazlıqları dərhal aradan qaldırmağı, avtomobilini və ən əsası daşıdığın sərnişinləri çətin vəziyyətdən, döyüş meydanından, atəş altından çıxarmağı bacarmalısan. Bunun üçün də sürücünün yüksək peşəkarlığa malik olması zəruridir".



Hərbçi olmağının səbəbini soruşduqda Aminin cavabı belə oldu: "Vətəni sevmək, millətinə, xalqına az da olsa faydalı olmaq hər bir vətəndaşın borcudur. Seçdiyimiz peşələrə uyğun olaraq hər birimiz Vətənimizə xidmət edirik. Kimi müəllim olub elmin sirlərini övladlarımıza öyrədir, kimi həkim olub xəstələrə şəfa verir. Mən də vətəndaşlıq borcumu Vətənin keşiyində durub, torpaqlarımızı düşməndən qorumaqda gördüyüm üçün hərbçi olmaq qərarına gəldim. Vətənimə - doğma Azərbaycanımıza xidmət etmək, onun hər qarışına sinəmi sipər edib qorumaq mənim də amalımdır. Vətən bizdən hünər gözləyir. Mən bütün qanımla, canımla onu qorumağa hazıram. Hər zaman çalışıram ki, xidmətimlə başqalarına nümunə olum."

**Leytenant
Oruc MUSTAFAYEV
"Azərbaycan Ordusu"**

# Quru Qoşunlarında komanda-qərargah təlimi keçirilib



2022-ci ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının birləşmələri ilə komanda-qərargah təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq, həyəcan siqnalı ilə qaldırılan hərbi hissələrin idarəetmə orqanlarının ərazidə açılması təmin olunub və bölmələrin fəaliyyətləri xəritə üzərində dəqiqləşdirilib. Tapşırıqların icrası ilə bağlı komandirlərin məruzələri dinlənilib.

Təlimin əsas məqsədi bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaq, eləcə də qərargahların fəaliyyətini daha da təkmilləşdirməkdir.

Komanda-qərargah təlimində qarşıya qoyulan tapşırıqlar hərbi qulluqçular tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib.



# Ankarada Azərbaycan və Türkiyənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq əlaqələrinin inkişafı məsələləri müzakirə olunub

*Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində Silahlı Qüvvələrin Hərbi Attaşelik Aparatının nümayəndələri ilə Türkiyə Hərbi Dəniz Qüvvələrinin Komandanı vəzifəsinə yeni təyin olunmuş ordu admiralı Ercüment Tatlıoğlu arasında görüş keçirilib.*



AZƏRTAC xəbər verir ki, görüş zamanı Azərbaycan Hərbi Dəniz Qüvvələri ilə Türkiyə Hərbi Dəniz Qüvvələri arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları və perspektiv istiqamətləri müzakirə olunub. Tərəflər döyüş hazırlığını, birgə təlimlərin keçirilməsini, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini, eləcə də Hərbi Dəniz Qüvvələri arasında əlaqələrin inkişafının vacibliyini qeyd ediblər.

Eyni zamanda, hərbi attaşe polkovnik Müşfiq Məmmədov 44 günlük Vətən müharibəsi və işğaldan azad olunmuş ərazilərimizdə aparılan sürətli quruculuq işləri barədə ordu admiralı Ercüment Tatlıoğluna ətraflı məlumat verib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün münasibətlərin, o cümlədən hərbi əməkdaşlığın qardaşlıq və dostluq üzərində qurulduğu xüsusi vurğulanıb. Hərbi attaşe, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığa Azərbaycanın maraqlı olduğunu, Hərbi Dəniz Qüvvələri sahəsində də ikitərəfli əməkdaşlığın uğurla davam etdiyini və daha da inkişaf edəcəyinə əmin olduğunu bildirib.

# “Türkiyə ilə Azərbaycan Avropaya və Asiyaya açılan iki körpüdür”

Türkiyə ilə Azərbaycan Avropaya, Asiyaya açılan iki körpüdür və strateji hub rolunu oynayır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı oktyabrın 29-da Türkiyənin milli bayramı münasibətilə keçirilən tədbirdə söyləyib.

O qeyd edib ki, Türkiyə 44 günlük Vətən müharibəsində olduğu kimi azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində, infrastrukturun qurulmasında da qardaş Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, taleyi taleyimiz, kədəri kədərimizdir.

Səfir bildirib ki, Türkiyə bütün imkanları, özəl və beynəlxalq təcrübəsi ilə bütün sahələrdə Azərbaycanın yanındadır.

Cahit Bağçı vurğulayıb ki, Türkiyə və Azərbaycan birlikdə Avropada mövcud olan enerji problemini həll etmək iqtidarındadır.

# Azərbaycanın Müdafiə Nazirliyi: Ermənistanın baş qərargahı əməliyyat şəraitindən xəbərsizdir

Ermənistan silahlı qüvvələrinin bölmələri ilə guya İstisu yaşayış məntəqəsi istiqamətində mövqe atışmaları nəticəsində Azərbaycan Ordusunun bölmələrinin itki verərək geri çəkilməsi və mövqe dəyişikliyi barədə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinə istinadən yayılan məlumat yalandır.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a məlumat verilib.

"Oktyabrın 24-dən bu günədək əməliyyat şəraitində heç bir dəyişiklik olmadığı halda qarşı tərəfin silahlı qüvvələrinin baş qərargah rəisinin belə bir açıqlama verməsi onun əməliyyat şəraitindən xəbərsiz olduğunu nümayiş etdirir. Bildiririk ki, əməliyyat şəraitində heç bir dəyişiklik olmayıb və bölmələrimiz əvvəlki mövqelərində döyüş növbətçiliyini davam etdirir", - deyə məlumatda qeyd olunur.

# Silah və hərbi texnikanın payız-qış mövsümündə istismar rejiminə keçidi başa çatıb



*2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunda silah, döyüş və xüsusi texnikanın istismarının payız-qış mövsümünə keçirilməsi üzrə kompleks tədbirlər başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, silah və texnikanın, o cümlədən aviasiya vasitələrinin payız-qış mövsümündə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, eləcə də digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib.

Yüksək dağlıq və sərt iqlim şəraitində dislokasiya olunan bölmələrimizə normadan əlavə təminat və təchizat vasitələri ayrılıb. Döyüş növbətçiliyi aparan şəxsi heyətin ərzaq təminatı, isti geyim və yanacaq ehtiyatı, silah və sursat təchizatı normaya uyğun olaraq bölmələrə çatdırılıb.

Azərbaycan Ordusunun bütün bölmələrində silah və hərbi texnikanın payız-qış mövsümündə istismar rejiminə keçidi tam təmin edilib.



# Prezident İlham Əliyev xalqımızı qalib xalqa çevirdi, ordumuzun gücünü dünyaya göstərdi

*Zəfər forumunun növbəti ünvanı oktyabrın 31-də İsmayıllı rayonu olub. İsmayıllı, Şamaxı, Ağdaş, Ağsu, Göyçay, Qobustan, Ucar, Qəbələ, Şəki, Qax, Zaqatala, Balakən və Oğuz rayonlarının iştirakı ilə keçirilən Zəfər forumu İsmayıllı rayon Mədəniyyət Mərkəzində təşkil edilib.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, forumda Prezident Administrasiyasının məsul əməkdaşları, Müdafiə Nazirliyi və yerli icra hakimiyyəti orqanlarının rəsmiləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları, Azərbaycan Ordusunun hərbi qulluqçuları, qeyri-hökumət təşkilatlarının, eləcə də ictimaiyyətin nümayəndələri fəal iştirak ediblər. Qonaqlar tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Ana abidəsini və şəhidlərin əbədi məşəl kompleksini ziyarət ediblər.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, müharibə və Silahlı Qüvvələr veteranı, Zəfər paradının ssenari müəllifi və aparıcısı polkovnik Abdulla Qurbaninin moderatorluq etdiyi tədbirdə görkəmli dövlət xadimi Heydər Əliyevin və şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.



İsmayıllı rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov forum iştirakçılarını salamlayıb. Bildirib ki, Vətən müharibəsində Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" çağırışına qoşulan İsmayıllı sakinləri həm ön, həm də arxa cəbhədə öz vətəndaşlıq borclarını yerinə yetirərək, sona kimi Ali Baş Komandanın yanında oldular. Xalqımızın şanlı Qələbəsi ilə yekunlaşan müharibə dövründə İsmayıllı sakinləri orduya dəstək aksiyaları keçirərək yardım karvanı yolladılar. Məhz bu həmrəyliyin, milli birliyin nəticəsində Azərbaycan xalqı "Dəmir yumruq" kimi birləşdi və düşmən üzərində Qələbə qazandı.

Prezident Administrasiyasının qeyri-hökumət təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev 44 gün davam edən Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər birimiz bundan sonra da Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşməklə bütün gələcək uğurlarımızın şahidi olacağıq. Bu, danılmaz həqiqətdir ki, Prezident seçildiyi ilk gündən İlham Əliyev Azərbaycanın işğalla barışmayacağını dəfələrlə bəyan etdi və vədinə sadiq qalaraq xalqımızı qalib xalqa çevirdi, bütün dünyaya Azərbaycan Ordusunun gücünü göstərdi.

Forumda iştirak edən şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və müvafiq qurumların nümayəndələri çıxış edərək Müzəffər Ali Baş Komandanın Azərbaycan naminə əmrlərinə hər an hazır olduqlarını bəyan ediblər.

Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiram ifadə olunub.

Tədbir iştirakçıları Əməkdar artist polkovnik-leytenant Cahangir Qurbanovun rəhbərlik etdiyi Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin iştirakı ilə hərbi marş və vətənpərvərlik mahnılarını alqışlarla qarşılayıblar.

Nümayəndə heyətlərinə Müdafiə Nazirliyinin adından A.Qurbaninin "Böyük gələcəyə baxış" və "Vətən müharibəsi şəhidləri" adlı kitabları hədiyyə edilib.

Qeyd edək ki, növbəti forumlar Sabirabad və Bakıda keçiriləcək.



# Azərbaycan Ordusunda gender bərabərliyi ilə bağlı seminarlar keçirilib

*Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbənin nümayəndələri Azərbaycan Ordusunda gender bərabərliyi ilə bağlı seminarlar keçiriblər.*



Şöbə rəisi Zümrüd Səmədova belə tədbirlərin keçirilməsinin zəruriliyindən söz açaraq orduda həyata keçirilən gender bərabərliyinin mahiyyəti haqqında danışıb: "Azərbaycan qadını ictimai həyatın hər bir sahəsində fəaldır, ictimai rəyin yaranmasında və formalaşmasında da fəal iştirak edir. Gender bərabərliyi, şəxsi həyətin insan hüquqları və azadlıqlarının təminatı sahəsində görülən işlər Azərbaycan Respublikasının Konstitusiyası əsas götürülərək demokratik dövlətlərin təcrübələri öyrənilməklə daha da təkmilləşdirilir. Son illər Azərbaycan Ordusunda gender bərabərliyinin təmin olunması istiqamətində ciddi addımlar atılıb. Birlik, birləşmə, hərbi hissələrdə qadın hərbi qulluqçularla mülki işçilərin hüquqlarının daha etibarlı müdafiəsi və təbliği, o cümlədən onların hərbi hissənin ictimai-siyasi həyatında iştirakının dəstəklənməsi, qadın və kişilər arasında bərabər imkanlara nail olunması istiqamətində davamlı, əhatəli və sistemli tədbirlər həyata keçirilir".



Mövzu ilə bağlı çıxış edənlər bildiriblər ki, gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu Öndərin yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlət qadın siyasətinin daha böyük nailiyyətlərlə icrasını təmin edir. Azərbaycanda qadın siyasəti dövlət başçısının rəhbərliyi ilə yüksəliş mərhələsinə qədəm qoyub. Ölkəmiz bu sahədə dünyanın inkişaf etmiş dövlətləri ilə eyni sıradadır. Ötən illər ərzində qadınlarla bağlı hüquqi baza daha da təkmilləşdirilib. Dövlət başçısının rəhbərliyi ilə sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atıb.

Seminarlarda Azərbaycan cəmiyyətində, ümumilikdə Azərbaycan Ordusunda gender bərabərliyinin və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində geniş, məzmunlu çıxışlar edilib, inkişaf etmiş ölkələrin ordularında insan hüquqları və gender bərabərliyi sahəsində həyata keçirilən fəaliyyətlər barədə məlumatlar verilib, diskussiyalar, müzakirələr aparılıb, xüsusilə qadın hərbi qulluqçuları və mülki əməkdaşları maraqlandıran suallar ətraflı şəkildə cavablandırılıb.

**"Azərbaycan Ordusu"**



# 44 günlük haqq savaşı Böyük Qələbə ilə tamamlandı

*Azərbaycan əsgəri 44 günlük haqq savaşını Böyük Qələbə ilə tamamladı və bu tarix qəhrəmanlıq salnaməsi oldu. Ordumuzun şəxsi heyəti polad iradəsi, yüksək döyüş ruhu ilə qazandığı Zəfər nəticəsində təkcə regiona deyil, dünyaya vətənpərvərlik nümunəsini nümayiş etdirdi. Vətən savaşında vaxtvədəsindən, ərazinin relyefindən, hava şəraitindən asılı olmayaraq hər bir döyüşçü şanlı tarixin qazanılmasında pay sahibidir. Qısa müddətdə döyüş meydanında böyük uğur qazanan rəşadətli ordumuz ərazi bütövlüyümüzü təmin etdi, şəhidlərimizin qisasını aldı.*

Bu savaşda iştirak edən hərbi qulluqçularımızın hər birinin xatirələri fərqli olsa da, amalları bir idi - Vətən torpaqlarını işğaldan və işğalçılardan təmizləmək. Güc, iradə, cəsarət və Vətən sevgisindən yaranan ruh yüksəkliyi Böyük Qələbənin təmin olunmasında əsas faktorlardan biri oldu. Xalqımızın qəlbində qubara çevrilən doğma yurd həsrətinə bu gün artıq son qoyulub. Qarış-qarış azad olunan tarixi ərazilərimizi öz qanı, canı və alın təri ilə Vətən torpağına birləşdirən oğullarımızın hər biri qədirbilən xalqımızın ürəyində daim yaşayır və bundan sonra da yaşayacaq. Bu gün xalq öz ordusuna güvənir və inanır, ordu isə ona olan inamı layiqincə doğruldur. Bir zamanlar mənfur düşmən tərəfindən darmadağın olunmuş ərazilərimizdə mühüm işlər görülür. Böyük Qayıdışın ilkin təməlləri artıq qoyulub və prioritet məsələ olaraq uğurla davam etdirilir. Yollar salınır, infrastruktur bərpa edilir, bir sözlə, həyat öz axarına qayıdır. Ezamiyyətimiz ərəfəsində işğaldan azad olunmuş torpaqlarımızda Vətən müdafiəçiləri ilə görüşüb, onların fikirlərini qələmə aldıq. Qəhrəman oğullarımızı tanımaq və oxucularımıza tanıtmaq məqsədilə onlarla həmsöhbət olduq.

## "Azərbaycan Ordusunda xidmət etdiyim üçün qürurluyam"

İkinci Qarabağ müharibəsində qələbə, zəfər naminə ləyaqətlə vuruşan mərd oğullardan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nadir Sadıqovdur. Nadir 1991-ci ildə Biləsuvar rayonunda anadan olub. Tam orta məktəbdə təhsil aldıqdan sonra 2010-cu ildə hərbi xidmətə yollanır. Hərbi formaya, silaha olan sevgisi 2017-ci ildə onu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kursunu keçməyə sövq edir.

"Hələ də qazandığımız böyük qələbənin təsirindəyəm. Qürurluyam ki, bu zəfərin iştirakçılarından biri də mənəm", - deyə Nadir söhbətə başladı. "30 ilə yaxın davam edən həsrətin bitməsi mənim ən böyük arzularımdan biri idi. Hər zaman qalib xalqın qalib əsgəri olmağımı xəyal edərdim. Sentyabrın 27-si bu xəyal gerçək oldu. Biz qorxu bilmədən, müharibənin norma və prinsiplərini pozmadan ləyaqətlə savaşdıq. Həmin gün tarix yazıldı. Biz də bu tarixin memarı olduq. Azərbaycan Ordusunun hərbi qulluqçusu olmaqdan qürurluyam".

Nadir Sadıqov Füzuli, Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak edib. Hal-hazırda komando hərbi hissəsində xidmətini uğurla davam etdirir. "Vətən müharibəsi hər birimizə sonsuz sevinc və baş ucalığı yaşatdı. Qalib Ordunun qalib hərbçisi olmaqdan olduqca qürurluyam. Döyüşlər bitdikdən sonra yeni yaradılan komando təlimlərini keçib Vətənin müdafiəsində dayanmışam. Ali Baş Komandan komando hərbi hissələrinin sayının artırılması ilə bağlı çıxışlarında vurğulamışdı: "Bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edərək ordumuzun gücü, yenilməzliyi naminə daha ciddi səylə xidmət edəcəklər". Ölkə başçısının hər çıxışında biz-



lərə olan inamını duyur, fərəhlənirik. Bu da hər birimizə ruh yüksəkliyi yaşadır", - deyə kiçik çavuş vurğuladı.

## "Övladlarımı gələcəyin zabiti kimi görmək ən böyük arzularımdan biridir"

Gizir Kərim Əliyev Vətən müharibəsində iştirak edib. O, döyüşlərlə bağlı xatirələrini bölüşərək dedi: "Vətən müharibəsi iştirakçısı olduğum üçün qürurluyam. "Bir vaxtlar torpaqlarımızın işğal altında olması hər birimizin ağrılı yeri olaraq qalırdı. Düşmən tapdağı altında olan torpaqlarımızı azad etməkdə payımın olması arzusu məni ordu sıralarına gətirdi. Yoldaşlarımla birgə təlimlərdə ciddi çalışır, öyrəndiyimiz yeni məlumatları döyüş əmri verildikdə tətbiq etmək üçün həyəcanlanırdıq. "İrəli!" əmrini uzun illərdən bəri gözləyirdik. Hər birimiz üçün bir sual maraqlı idi: "Görəsən, biz də haqq savaşımızın iştirakçılarından ola biləcəyikmi?" 2020-ci ilin 27 sentyabrında gözlənilən an yetişdi. Döyüş yoldaşlarımın gözlərindən fərəh, sevinc hisslərini asanca duymaq olurdu. Mənim də se-



vincim yerə-göyə sığmırdı. Döyüşlər vaxtı hər kəsin üzərinə ağır vəzifələr düşürdü. Hər dəfə yeni ərazilərimizin azad edilməsi bizlərə sonsuz güc mənbəyi olurdu. Ali Baş Komandan İlham Əliyevin çıxışları, arxa cəbhədən aldığımız xəbərlər, məktəblilərin yazdığı inam, sevinc, qürur dolu məktublar döyüşən hər kəsə ruh yüksəkliyi aşılayırdı. 44 gün boyunca yalnız bir şey düşündük: "Şəhid olsaq belə başlanan işi yarımçıq saxlaya bilmərik". Döyüş yoldaşlarımın bəziləri elə bu amalla şəhidlik zirvəsinə ucaldılar. Hər bir oğul son günə qədər içdiyi anda sadiq qaldı".

Gizir Kərim Əliyev söhbətinin sonunda onu da vurğuladı ki, ən böyük arzusu iki oğul övladını zabit kimi ordu sıralarında görməkdir. "Oğullarımın milli ruhda formalaşmasına diqqət edirəm. Çünki bu torpaqlar bizdən sonra onlara əmanətdir. Əminəm ki, hər bir övlad gələcəyin daha güclü zabit və əsgəri olub, azad olunan torpaqlarımızda xidmət edəcəklər".

## Məğrurluq Vətənə sevgidir

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Samir Xəmmədli də Vətənin keşiyində ayıq-sayıq dayanan cəsur oğullardan biridir. Samir on il əvvəl müddətli həqiqi hərbi xidmətini də cəbhə bölgəsində keçmişdi. İmişli şəhərində anadan olan Samir ordu sıralarından tərxis olunanda torpaqlarımızın 20 faizi yağı tapdağı altında idi. O, evə - doğmaları yanına qa-



yıtsa da, ürəyi xidmət etdiyi səngərdə, orada keşik çəkən əsgər yoldaşlarının yanında idi. Səngərin o üzündəki torpaqları gördükcə özündə ixtiyarsız bir narahatlıq hiss etmişdi. Həmin ərazilərin azad edilməsi barədə düşüncələr onu rahat buraxmırdı. Samir müddətdən artıq həqiqi hərbi xidmət edən hərbi qulluqçu kimi ordu sıralarına qayıtmaq qərarına gəldi. Doğmaları onu tamam fərqli bir sahədə görmək istəsələr də, Samir israrla hərbi xidməti seçdi. Ata da, ana da oğullarına xeyir-dua verdilər. 2014-cü ilin noyabrında Samir əyninə yenidən hərbi forma geyindi. Azərbaycanın hərb tarixinə Aprel döyüşləri kimi düşən həmin döyüşdə Samir də iştirak edib. O əmin idi ki, döyüşlər sonuncu erməni əsgəri torpaqlarımızdan çıxana qədər dayanmayacaq. Düşmənin təkidli yalvarışları döyüşün tezliklə dayanmasına səbəb oldu.

2020-ci ilin yayında düşmən cəbhədə yenidən fəallaşdı. Düşmən Tovuz istiqamətində mövqelərimizə ağır artilleriya silahlarından atəş açdı. Daha sonra hücuma keçmək istədi. Hər an ayıq-



sayıq dayanan Azərbaycan əsgəri düşmənin bu məkrli niyyətinin qarşısını qətiyyətlə aldı. Ağır itkilərə məruz qalan düşmən geri çəkilməyə məcbur oldu. Bundan nəticə çıxarmayan qəsbkarlar sentyabrın sonunda yenidən mövqelərimizə hücuma keçməyə cəhd göstərdilər. Ali Baş Komandan İlham Əliyev əks-hücum əmrini verdi.

İkinci Qarabağ müharibəsində əsgər Samir Məmmədov da döyüşdü. O zaman hər bir döyüşçünün məqsədi, amalı Vətən torpaqlarını azad etmək və Vətənimizin ərazi bütövlüyünü təmin etmək idi. 44 gün davam edən müharibədə ordumuz tarixin inanılmaz qələbəsini qazandı. Düşmən darmadağın edildi.

## Eşq olsun qalib Azərbaycan Ordusuna, Qarabağ Azərbaycandır!

Haqq savaşımızın iştirakçısı olan gizir İlkin Abbasov uzun müddətdir ordu sıralarında xidmət edir. O, həm 2016-cı ilin Aprel döyüşlərinin, həm də İkinci Qarabağ müharibəsinin iştirakçısıdır.

2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub".

Müsahibim İkinci Qarabağ müharibəsi ilə bağlı fikirlərini bizimlə bölüşdü. "Sentyabrın 27-də düşmən cəbhə boyu mövqelərimizi, eləcə də mülki yaşayış məntəqələrimizi müxtəlif çaplı silahlardan və artilleriya qurğularından istifadə edərək atəşə məruz qoydu. Verilən "Həyəcan" siqnalı ilə toplanaraq düşmən hücumunun qarşısını almaq üçün təyin olunmuş məntəqədə cəmləşdik. Ali Baş Komandanın əmri ilə əks-hücuma keçdik. 44 günlük Vətən müharibəsində Füzuli rayonunun Horadiz kəndi istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Düşmənin möhkəmləndiyi bir yüksəklik var idi, alınması çətin idi. Amma mümkünsüz deyildi. İgid oğullarımızın Vətən sevgisi, misilsiz cəsarəti və rəşadəti sayəsində o yüksəklik də düşməndən təmizləndi. Həmlə zamanı düşmən snayperinin açdığı atəş nəticəsində yaralandım. Peşəkar həkimlərimizin əməyi sayəsində tezliklə sağaldım və döyüşlərə, qardaşlarımın yanına qayıtdım. Qubadlı istiqamətində düşmən çoxlu sayda itki verdi. Bu gün ona görə qürurluyam ki, 30 ilə yaxın bərqərar olmayan ədalətin bərpasında mənim az da olsa əməyim var. Gərgin döyüşlər gedirdi. Görülən cəza tədbirləri nəticəsində düşmənin nəzarətdə saxladığı yüksəklikləri işğaldan azad edib, onların çoxlu sayda canlı qüvvəsini məhv etdik. İçimizdə kükrəyən Vətən sevgisi ilə hər an daha da irəliləyirdik. Düşmən çıxış yolunu qaçmaqda görürdü. Qazanılan uğur Azərbaycan Ordusunun gücünü, qüdrətini, qələbə əzmini və Ali Baş Komandan-xalq-ordu arasında birliyi nümayiş etdirdi. Döyüşlərdə şəhidlərimizin də qisası alındı. Məlumdur ki, döyüş varsa, itki də var. Ata-babalarımızdan bizə miras qalan Vətən torpağı tarixən şəhid qanı ilə yuyulub. Şəhidlərimiz ölümün gözünə dik baxaraq, irəli atılaraq, tarixi ədaləti bərpa etmək üçün sinələrini sipər etdilər. Xalqımızın başı dik, gənclərimizin gələcəyə inamı sonsuzdur. Öz doğma elindən didərgin düşmüş məcburi köçkünlərimizin sevincinin həddi-hüdudu yoxdur. Sevindirici haldır ki, bu gün tarixi torpaqlarımızda görüşürük. Qalib gəlmişik, tarix yazmışıq. Bu tarix qanla yazılıb, gələcək nəsil bunu bilməlidir. 44 günlük Vətən müharibəmiz tarix boyu qürur duyulacaq mötəbər hadisədir. 30 ilə yaxın işğalda saxlanılan torpaqlarımızda bu gün üçrəngli şanlı bayrağımız dalğalanır".

Bu gün hər bir azərbaycanlı qürurla "Qarabağ Azərbaycandır" deyir. Qalib ordumuz öz torpaqlarını düşməndən təmizləmək üçün haqq savaşında qalib gəldi. Şəhidlərimizi, qazilərimizi unutmamalıyıq. Məhz onlar canlarını və sağlamlıqlarını Vətən üçün fəda etdilər. Bu gün hər bir Azərbaycan gəncinin üzərinə düşən əsas vəzifə Vətənini göz bəbəyi kimi qorumaqdır. Yaşasın, bütöv Azərbaycan! Eşq olsun qalib Azərbaycan Ordusuna, Qarabağ Azərbaycandır!

**Baş leytenant Fuad CƏFƏROV,**
**Bəxtiyar ƏLİYEV,**
**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**



# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib



*Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Azad Hümmətov, İman Məmmədzadə, Bəhram Məmmədzadə, Nicat Qarazadə, Ülvi Rəfiyev, Toğrul Atakişiyev, Məhəmməd İsmayılzadə və Vaqif İsmayılzadənin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.*

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, rayon icra hakimiyyətlərinin əməkdaşları, şəhidlərin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə Vətən müharibəsi şəhidlərinin məzarları üzərinə əklillər qoyulub, tər çiçəklər düzülüb və ruhlarına dualar oxunub.

Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu zəfərin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Mərasim iştirakçılarına şəhidlərimizin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarxlar təqdim edilib.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimlərində şəhidlərimizə həsr olunan şeirlər, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# Ölümləri ilə ölümsüzləşən qəhrəmanlar





1995-ci il oktyabrın 28-də metronun "Ulduz" və "Nəriman Nərimanov" stansiyaları arasında baş vermiş qəfil yanğın hadisəsi onlarla şəhər sakininin ömrünə son qoydu. Başımıza gələn bu dəhşətli faciədən 27 il keçməsinə baxmayaraq, o qanlı hadisə daim qəlbimizi göynədir, ürəyimizi ağrıdır. Xalqımız bu qanlı faciədə həlak olanların xatirəsini həmişə hörmətlə yada salır, ehtiramla anır. Soyuq bir payız günündə baş verən qanlı faciədə yaralananlara kömək edənlərin arasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş baş leytenant Çingiz Babayev və "İgidliyə görə" medalına layiq görülmüş kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov da olublar. Bu kursantlar öz həyatlarını təhlükəyə ataraq köməyə ehtiyacı olanları xilas ediblər. Təəssüflər olsun ki, yaralıları xilas etməyə çalışan zabit və kursantlar faciədə həyatlarını itiriblər. Özləri həlak olublar, amma başqalarına ömür veriblər. Cəsarətli ölümləri ilə ölümsüzlük qazanıblar.

Hər il Cəmşid Naxçıvanski adına Hərbi Liseydə bu faciədə xüsusi qəhrəmanlıq göstərmiş zabit və kursantların xatirəsinə həsr olunmuş anım mərasimi keçirilir. Onların məzarları ziyarət olunur, qəbirləri üzərinə təzə-tər qərənfillər qoyulur.



Baş leytenant Çingiz Babayev, kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərova həsr olunmuş anım tədbirində onların əziz xatirəsi ehtiramla anıldı.

Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olundu.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini oxudular.

Ağrılarını yaşadığımız bu dəhşətli faciədən bəhs edən videoçarx nümayiş etdirildi.

Dərnək rəhbərləri Gülsədа Amanın və Aynurə Qulamovanın hazırladıqları "Əbədi yaşayan qəhrəmanlar" adlı ədəbi-bədii kompazisiya nümayiş etdirildi. Kursantların ifasında şeirlər səsləndirildi.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rəşad İbrahimov da çıxış edərək qanlı hadisələrlə bağlı xatirələrini danışdı. Metroda faciə baş verən zaman Hərbi liseydə oxuduğunu və onların da xilasetmə işlərinə cəlb etdiklərindən söz açdı. Neçə-neçə şəhər sakinini ölümün əlindən xilas etdiklərini dedi.

Kursant Samir Məmmədovun atası Nadir Məmmədov çıxış edərək doğmalarının xatirəsini əziz tutduqlarına görə təhsil ocağının rəhbərliyinə, pedoqoji kollektivə dərin minnətdarlığını bildirdi.

Hezi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

## ANAMA: Ötən həftə işğaldan azad edilmiş ərazilərdə 398 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, oktyabrın 24-dən 29-dək Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 49, tank əleyhinə 97 mina və 398 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 350 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.



# Övladlarının müharibəsiz bir dünyada yaşamasını istəyirdi...

Payız fəslini yaşayırıq. Günlər keçdikcə havanın hərarəti azalır, sərin küləklər əsir. İkinci Qarabağ müharibəsi də ılıq bir payız günündə başlamışdı. Gizir Vahid Alıyev də elə bir payız günündə qələbə arzusu ilə, zəfər yanğısı ilə, Qarabağı ermeni işğalçılarından azad etmək təşnəsi ilə döyüşlərə yollanmışdı. Yollanmışdı ki, tankçı kimi vuruşsun, döyüşsün, illərdən bəri ermənilərin tapdağında qalmış torpaqlarımızı işğaldan azad etsin. Düşmən üzərində zəfər çalanların sırasında o da olsun.

Əks-hücum əməliyyatlarının başladığı ilk gündən gizir Vahid Alıyev komandiri olduğu zirehli texnika ilə düşmən üzərinə şığıyır, mövqelərinə mərmilər yağdırırdı. Vahid döyüşə-döyüşə Şuşaya, Xankəndiyə, Xocalıya, həmçinin başqa şəhər və kəndlərimizəcən getmək istəyirdi. Təəssüflər ki, onun döyüş yolu qısa oldu. Vətən müharibəsinin ən gərgin anlarında ermənilər onun komandiri olduğu zirehli texnikanı vurdular. Vahidin həm döyüş, həm ömür yolu, həm də arzuları yarımçıq qaldı. Arzuları isə saysız-hesabsız idi. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olmuş gizir Vahid Alıyevdən yaxınlarına, doğmalarına acılı-şirinli xatirələri, bir də Abbas və Rahid adlı oğulları qaldı. O oğullar ki, həmişə ataları ilə fəxr edəcək, öyünəcəklər. İnanırıq ki, anaları Sona xanım övladlarını atalarının adına layiq böyüdəcək.



### Müqəddəs izlər heç vaxt silinməyəcək

Gizir Vahid Alıyevin döyüş və ömür yolunu öyrənmək üçün evlərinə yollandıq. Bizi şəhidin həyat yoldaşı Sona xanım qarşıladı. Vahidin övladları həyətdə oynayırdılar. Bizi görən, səsimizi eşidən kimi darvazaya tərəf boylandılar. Bəlkə də atalarının gəldiyini zənn etmişdilər. Qəribə hisslər keçirirəm. Gözlərim asta-asta divarlarda, tavanda, döşəmədə dolaşır. Gizir Vahid Alıyev çox da uzun olmayan ömrünün bir hissəsini burada keçirib, övladlarını burada böyüdüb. Səhərləri bu evdə açılıb, axşamlarını bu evdə yola salıb. Təəssüf ki, iki ildən çoxdur Vahid bu evin qapısından içəri girmir. Adama elə gəlir ki, təkcə yaxınları, doğmaları deyil, evin divarları da onun üçün darıxıb. Bu evin hər qarışında Vahidin əl izləri qalıb. Əminik ki, doğmaları üçün müqəddəs olan bu izlər heç vaxt silinməyəcək.

İllər uzunu yaşadığı evdə indi Vahidə xatirə guşəsi düzəldilib. Guşəyə onun müxtəlif illərdə ailəsi, uşaqları ilə çəkdirdiyi şəkillər, nümunəvi xidmətinə görə aldığı fəxri fərmanlar, ömür və döyüş yolu haqqında yazılmış məqalələr, dərc edilmiş qəzetlər qoyulub. Guşə Vahidin yaxınlarının ziyarətgahıdı, şübhəsiz. Biz də guşənin qarşısında baş əydik. Böyük maraq və ehtiramla şəkillərə baxa-baxa çoxdan eşitdiyim hikmət dolu bir fikri xatırladım: "Hər şəkildə min bir xatirə yatır". Doğrudan da, elədir. Həyat yoldaşı ilə birlikdə çəkdirdiyi şəkillərə baxdıqca Sona xanımın xatirələri çözələndikcə çözələnir. Bu xatirələr yüzlərlə hadisənin qapısını üzümüzə açır. Sanki dil açıb bizimlə danışmaq istəyir.

Sona xanımın xatirələrini dinləməzdən əvvəl gizir Vahid Alıyevin ömür və xidmət yolu ilə yaxından tanış olduq. Onun keçdiyi qısa, lakin şərəfli ömür yolunu vərəqlədikcə öyrənirik ki, Alıyev Vahid Abbas oğlu 18 fevral 1989-cu ildə Daşkəsən rayonunun Alnutdağ qəsəbəsində dünyaya göz açmışdı. Anası Pəri xala başqa övladları kimi onun da boyunu sevə-sevə böyütmüşdü ki, yurda düşmən çəpəri olsun, zamanı gələndə el-obasını yadelli işğalçılardan qorusun. On səkkiz yaşı tamam olanda 2007-ci ildə Vahid də tay-tuşları ilə bərabər böyük həvəslə ordu sıralarına yola düşdü. Vahid hələ kiçik yaşlarından əyninə forma geyinib Vətənə əsgər olmaq istəyirdi.

### Ordenli, medallı igid

Gizir Vahid Alıyev 2007-ci ildə - Vətənə əsgər oldu, cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmətə başladı. Xidmət etdikcə orduya olan sevgisi və hərbi xidmətə marağı da artdı. Sevgisi artdıqca ürəyinin dərinliyində gələcək həyatını orduya bağlamaq istəyi baş qaldırdı. Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirdikdən bir müddət sonra ürəyindən keçən istəyini gerçəkləşdirdi. 2012-ci ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizirlik kursunda oxudu. Kursu bitirdikdən sonra tankçı kimi "N" hərbi hissəsində xidmətə göndərildi. Gizir Vahid Alıyev hərbçi kimi üzərinə düşən tapşırıqları bacarıqla yerinə yetirib, xidmətinə məsuliyyətlə yanaşıb, təlimlərdə fəal iştirak edib, bilik və bacarığını ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə böyük həvəslə öyrədib. Çalışırdı ki, tabeliyindəki şəxsi heyətin döyüş hazırlığı yüksək olsun.

Vahid Alıyev 2014-cü ildə sevib-seçdiyi Sona xanımla ailə qurub. 7 avqust 2015-ci ildə onun bir oğul övladı dünyaya göz açıb. Ona atasının adını verib - Abbas. 14 yanvar 2017-ci ildə gizir Vahid Alıyevin ailəsində daha bir sevincli gün yaşanıb. Onun ikinci oğlu dünyaya gəlib. Vahid uşağın adını Rahid qoyub. Beləcə, övladlarını böyüdə-böyüdə ömrünün ən xoş günlərini yaşayıb. 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başlayanda övladlarını həyat yoldaşı Sona xanıma tapşıraraq Vətən uğrunda savaşa yollanıb.

Döyüş yolu Füzuli rayonundan başlayıb. Vahid düşmən sədlərinin yarılmasında fəal iştirak edib. Tankçı kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən cəsarətlə gəlib. Demək olar ki, o, hər gün həyat yoldaşı ilə telefon əlaqəsi saxlayıb, övladlarından xəbər tutub. İştirak etdiyi döyüşlərdən, erməni işğalçılarını necə məhv etdiklərindən danışıb. Günlərin birində onun zənglərinin arası kəsilib. Bir payız günündə ailəsinin qapısını Vahidin ölüm xəbəri döyüb. Sentyabrın 30-da Füzuli rayonunun Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə şəhid olub. 2 oktyabr 2020-ci ildə Daşkəsən rayonundakı Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə döyüşlərdə göstərdiyi igidliyə görə Alıyev Vahid Abbas oğlu "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

### "Qızımız olsa, adını sən qoyarsan"

Sona xanım həyat yoldaşı ilə bağlı kövrələrək xatirələrini çözələyir:

- Bakı şəhərinə gələndə təsadüfən tanış olmuşduq. Sonralar bildim ki, elə ilk baxışdan məni sevib. Dörd il bu sevgini ürəyində gəzdirib. Vahidin məni sevdiyini yalnız bir payız günündə evimizə elçilərini göndərəndə bildim. Qəribə idi ki, mən onu bir payız günündə tapmışdım, elə bir payız günündə də itirdim. Toyumuz da 2014-cü ilin payızında oldu. Ürəklərimizdə dolub-daşan arzu və istəklərlə bir-birimizə qovuşduq. 2015-ci ildə oğlumuz dünyaya gəldi. Rahiddən sonra dedi ki, qızımız dünyaya gələndə adını qoymağı sənin ixtiyarına buraxacam. İki oğul atası idi, amma qız övladı da istəyirdi. Vahid bu sözləri tez-tez deyirdi: "Sona, kaş Qarabağ uğrunda müharibə tezliklə başlaya. İstəyirəm ki, biz tezliklə Qarabağı ermənilərdən azad edək. Müharibə bizdən ötüb övladlarımıza qalmasın. Onlar azad, firavan, müharibəsiz bir dünyada yaşasınlar." Vahid arzusuna çatdı. Qarabağ uğrunda döyüşlər başladı. Həyat yoldaşım müharibəyə yollandı. İlk günlər zəng vurub ermənilərlə apardıqları uğurlu döyüşlərdən danışırdı. Füzuli rayonu uğrunda vuruşurdu. Deyirdi ki, düşmənin mövqelərini darmadağın edib irəliləyirik. Ermənilər qarşımızda dayana bilməyib qaçırlar. İnşallah, tez bir zamanda düşməni qovub torpaqlarımızdan çıxaracağıq. Qarabağ müharibəsi övladlarımıza qalmayacaq. Təəssüflər ki, sentyabrın son günlərində Vahidin şəhid olduğunu eşitdik. Canını Vətənin azadlığı naminə qurban verdi. Qurban verdi ki, övladları müharibəsiz, səmasında sülh göyərçinləri qanad çalan bir dünyada, əmin-amanlıqda yaşasınlar.

Şəhid olandan bir neçə gün sonra bizə onun əşyalarını göndərmişdilər. Bu əşyaları ondan son xatirə kimi saxlayacam. Qürur duyuram ki, həyat yoldaşım torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Mən Vahiddən yadigar qalan övladlarını onun adına layiq böyüdəcəyəm.

### "Oğullar verdi ki, can, yaşasın Azərbaycan..."

Şəhid gizir Vahid Alıyevin böyük övladı Abbas Balaxanı qəsəbəsindəki 69 nömrəli məktəbin birinci sinfində oxuyur. Biz şəhidin ailəsinə baş çəkəndə Abbasın ibtidai sinif müəllimi Samirə Kərimovanı da burada gördük. Müəllim də şəhid ailəsini ziyarətə gəlmişdi. Söhbət zamanı Samirə xanım dedi ki, Abbasın atası Vahid müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olub. "Döyüşçü şair Elxan Xəzərin bu misrasını tez-tez xatırlayıram: "Oğullar verdi ki, can, yaşasın Azərbaycan!" Vahid İkinci Qarabağ müharibəsində qələbəni bizə yaşadan oğullardan biridir. Şəhid övladlarına diqqət və qayğı göstərmək hamımızın müqəddəs borcudur. Şəhidlərin övladı hamımızın övladıdır, xalqımızın övladıdır, Azərbaycanın övladıdır. Mən Abbasın dərsləri ilə yaxından maraqlanır, ona diqqət və qayğı ilə yanaşıram. Çalışıram ki, dərslərində çətinlik hiss etməsin. Ətrafında həmişə ona diqqət və qayğı göstərənləri görsün. Ümid edirəm ki, bu, həmişə belə də olacaq".

Şəhid gizir Vahid Alıyevin timsallarında bütün şəhidlər əbədi olaraq ürəklərdə yaşayacaq, heç vaxt qəlblərdən və yaddaşlardan silinməyəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Cənubi Koreya və ABŞ Hərbi Hava Qüvvələrinin təlimləri başlayıb



ABŞ və Cənubi Koreya Hərbi Hava Qüvvələrinin beş ildən sonra ilk böyük birgə təlimi başlayıb.

Təlimlərdə Cənubi Koreya Hərbi Hava Qüvvələrindən manevrlərdə F-35A qırıcıları, həmçinin F-15K və KF-16 təyyarələri də daxil olmaqla 140-a yaxın təyyarə iştirak edir. ABŞ Hərbi Hava Qüvvələri Yaponiyanın Okinava adasında yerləşən F-35B qırıcıları və EA-18 elektron döyüş təyyarələri də daxil olmaqla, 100 texnika ilə təmsil olunur.

Qeyd edilir ki, təlimlərdə Avstraliya Hərbi Hava Qüvvələrinə məxsus çoxməqsədli nəqliyyat tankeri KC-30A da iştirak edəcək.

### Yaponiya Müdafiə Nazirliyi "peyklər bürcünün" yaradılmasını nəzərdən keçirir



Yaponiyanın Müdafiə Nazirliyi aşağı orbitdə birlikdə fəaliyyət göstərəcək 50-yə yaxın kiçik kosmik gəmidən ibarət "peyklər bürcünün" yaradılması imkanlarını araşdırır.

Oktyabrın 30-da "Asahi Shimbun" qəzeti Yaponiya Müdafiə Nazirliyinə istinadla bu barədə məlumat yayıb.

Qeyd edilir ki, "bürc" yüksək sürətinə görə təhlili çətin olan hipersəsli raketlərin buraxılışlarını, eləcə də düşmən qoşunlarının hərəkətini izləməyə imkan verəcək. Bundan əlavə, Yaponiya özünümüdafiə qüvvələrinə potensial düşmən bazalarına qarşı qabaqlayıcı zərbələr endirmək hüququ verilərsə, o zaman bu peyklərdən hücum hədəflərini müəyyən etmək üçün istifadə olunacaq. Kosmik gəmilərin 2023-cü ildən 2027-ci maliyyə ilinə qədər olan dövrdə sistemli şəkildə kosmosa buraxılacağı gözlənilir.

### Şimali Koreya şərq istiqamətində daha 2 ballistik raket buraxıb



Koreya Xalq Demokratik Respublikası (KXDR) oktyabrın 28-də şərq istiqamətində 2 qısamənzilli ballistik raket buraxıb.

Bu barədə "Yonhap" agentliyi Cənubi Koreya silahlı qüvvələrinin birləşmiş qərargahına istinadla məlumat yayıb. Raketlərin Kanqvon vilayətindəki Tonqçon rayonundan yerli vaxtla saat 11:59-da və 12:18-də buraxıldığı bildirilir. Cənubi Koreya hərbçiləri ABŞ-dan olan həmkarları ilə birgə KXDR-in nüvə-raket fəaliyyətini diqqətdə saxladıqlarını açıqlayıb.

### Gürcüstan müdafiə qüvvələrinin say tərkibi 37 min nəfər müəyyən olunub



Gürcüstan Müdafiə Qüvvələrində xidmət keçən hərbçilərin say tərkibi müəyyən olunub. Gürcüstan Müdafiə Qüvvələrində 37 min nəfər xidmət edəcək və bu rəqəm 2023-cü ilədək dəyişməyəcək.

Bu məsələ hökumətin parlamentə təqdim etdiyi qərar layihəsində əksini tapıb.

Qərarda qeyd olunur ki, bu il olduğu kimi, 2023-cü ildə də Müdafiə Qüvvələrinin hərbçi sayı maksimum 37 min nəfər olaraq qalacaq.

Məlumat üçün bildirək ki, parlament hər il müdafiə qüvvələrinin sayını təsdiqləyir. Son illər hərbi qulluqçuların sayı 37 min nəfər olaraq müəyyən edilir.

Əhalinin 2024-cü ildə keçiriləcək siyahıyaalınmasından sonra say tərkibinə yenidən baxıla bilər. 2014-cü ildə aparılmış sonuncu siyahıyaalınmaya əsasən Gürcüstan əhalisinin sayı 3 milyon 700 min nəfərdir.

**AZƏRTAC-ın materialları əsasında**

# Bu qüruru bizə ordumuz yaşadır

***Dünyanı heyrətləndirən tarixlər xalqın qüdrətidi. 1990-cı il milli-azadlıq hərəkatı da, bu hərəkatın nəticəsi olaraq dövlət müstəqilliyinin bərpası da, İkinci Qarabağ müharibəsi də, bu müharibənin sonunda qazanılan Zəfər də, milli-azadlıq hərəkatının mübarizlərinin övladları ədalətli müharibəmizin döyüşçüsü oldu. Bu döyüşlər vətənsevərliyin işğalçılıqla, azərbaycançılığın ermənilikIə, başəriliyin neo-faşizmlə döyüşləriydi. Bunları dünyanın yaddaşına qüdrətli Azərbaycan Ordusu yazdı...***

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz...".

Ermənistan sülh danışıqlarından yayınmaqda, regionda status-kvonu saxlamağa çalışırdı. Onun niyyəti Azərbaycandan işğal etdiyi torpaqları ləğv edilmiş Dağlıq Qarabağ ərafında birləşdirmək, yeni bir dövlət yaratmaq idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə bildirmişdi: "Azərbaycan xalqı, Azərbaycan dövləti heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməz". Bu qətiyyətli, son dərəcədə ciddi bəyanatdan sonra işğalçı dövlət niyyətindən əl çəkmək əvəzinə, işğal etdiyi ərazilərdən də, dövlət sərhədlərindən də yeni torpaqlar işğal etmək məqsədi ilə Azərbaycanın ərazilərinə hücumlar edirdi. Azərbaycan Ordusunun hissələri bu hücumların qarşısını qətiyyətlə alırdı. Hərbi bölmələrimiz 2020-ci il sentyabrın 27-də düşmən hücumunun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Bu, İkinci Qarabağ müharibəsi idi, mahiyyəti etibarilə Vətən müharibəsi kimi davam etdi.

İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətləri ordunun gücünü şərtləndirən amillərdən idi. Ordumuz Ali Baş Komandanın müraciətlərdə dediyi bəyanatları Zəfərlə tamamladı.

Biz də xatırlayırıq, dünya da xatırlayır ki, İkinci Qarabağ müharibəsinə kimi Ermənistan işğal etdiyi ərazilərdə yaratdığı "Ohanyan səddi"nin keçilməzliyi ilə qürrələnirdi. Ordumuz döyüşlərlə düşmənin illərlə yaratdığı bu sədləri dağıtdı, ilkin mövqe qələbələri qazandı. Bu qələbələr Azərbaycan əsgərini son döyüşə apardı. Ordumuz Şuşa uğrunda belə qətiyyətlə, dünyanı heyrətləndirən hünərlə döyüşdü...

Səməd Qasımov Birinci Qarabağ müharibəsində şəhid olmuşdu. Müharibə başlayanda Arif də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsinə müraciət etmişdi. "Atam şəhid olub, oğlum uşaqdı. Döyüşə getməsəm, atamın ruhu məni bağışlamaz...", - demişdi. Aparmamışdılar. Arif kimi düşünənlər müharibə müddətində ruhən döyüşlərdəydilər. Müharibədə analar ehtiyac olmasa da, döyüşən orduya nələr göndərmirdi? - xalq əsgərləşmişdi, yəni, xalqın döyüş ruhu əsgər ruhuydu - qətiyyətliydi, dönməziydi, döyüş əzminin bayrağıydı.

Tanıdığım bir ana Cəbrayılın Xudafərin kəndindəniydi. Cəbrayıl işğal olunanda o da evini-eşiyini tərk eləməyə məcbur olub. Onda 45 yaşı vardı. Əri, qardaşı şəhid olmuş bu qadının dilinin əzbəri Xudafəriniydi. "Ömür öz yurdunda yaşanılırsa, gözəldi, ay oğul. Öz Vətənində qəriblik ömrü yaşamaq ağırdı. Ordumuz bizi bu ağrılardan qurtaracaq. Həmin günə kimi ölmək istəmirəm...", - deyirdi. Müharibə başlayanda Ana təzə ev tikənlər kimi sevinirdi, təzə yurdunda ocaq çatanlar kimi sevinirdi. Bu sevinci hamı doğmalıqla yaşayırdı.

Müharibədə qazanılan qələbələr ananın da ürəyini dağa döndərirdi. Cəbrayıl işğaldan azad edilən də tanıyanların hamısının əhatəsində Ana gözəl bir könül xoşluğu yaşadı. Göz yaşları üz-gözünü yandıra-yandıra, "Böyük yoldan evimizə kimi dizin-dizin gedəcəm. Əllərim evimizin divarına toxunandan sonra arzum qalmayacaq, təki son nəfəsim yurduma qismət olsun...". Bu kəlmələr illər çəkən sıxıntıları azaltmışdı. Ağrı-acıları yumşaltmışdı. Bir qədər aralıda başqa bir ana için-için ağlayırdı. Ananın kəlmələri onu bir az da kövrəltmişdi. Hıçqırıq içində, "Gözün aydın, ay bacı. Ordumuz Qubadlını da azad edər. Mən də sən deyənləri deyirəm..." - deyilən bu kəlmələr təsəlli idi...

Ermənistan Gəncəyə raketlər atdı. Dağıntılar da oldu, yaralananlar da. 30-a qədər vətəndaş şəhid oldu. Bunlara görə hamı eyni qəhəri yaşadı. Qələbələrə görə eyni sevinci yaşayanlar bu qəhəri özünün qəhəri bilirdi; Vətən müharibəsində sevinc də ümumi idi, ağrı-acı da. Qazanılan Zəfər ona görə müqəddəs Zəfərdi...

Müqəddəs Zəfərin ikinci ilini də böyük qürurla yaşayırıq. Bu qüruru bizə İkinci Qarabağ müharibəsində də Azərbaycan Ordusu yaşatmışdı. 2022-ci il avqust, sentyabr döyüşlərində də....

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Maraq dünyamız

# Sibirdə inanılmaz səhra - Çara qumları





Sibiri səhralarla heç bir şəkildə əlaqələndirmək olmasa da, Sibir düzənliyindəki Çara səhrası düşüncələrimizi tamamilə dəyişdirə biləcək bənzərsiz, füsunkar mənzərəyə malikdir.

Çara səhrası Sibirdə Kodar və Udokan dağ silsilələri yaxınlığında yerləşən qum sahəsidir. Çara, Orta Sakukan və Yuxarı Sakukan çayları vadiləri arasında, Çarsk hövzəsində yerləşən 3 kilometr enində 6 kilometr uzunluğunda kiçik bir səhradır.

Bu qəribə mənzərə insanları yalnız özünəməxsusluğu ilə deyil, həm də gözəlliyi ilə təəccübləndirir. Çara qumlarının bənzərsiz ərazisi yaxınlığında yarpaqlı tayqa ağacları bitir, 40 kilometr aralıda Kodar silsiləsinin qayalı, qarla örtülmüş zirvələri yüksəlir.

İlk görünüşdən Çara qumları Orta Asiyanın ənənəvi qumlu çöllərindən heç bir şəkildə fərqlənmir. Lakin yerli oazislərdə palma ağacları əvəzinə kiçik şam, cırtdan sidr və cırtdan ağcaqayın ağacları yetişir. Çara səhrasını kvars qumu, uzunluğu 150-170 metrə çata bilən qayalar və təpə zəncirləri əmələ gətirir. Ən böyük təpələrin hündürlüyü 80 metrə qədərdir. Dik qumlu yamacların mailliyi 32 dərəcəyə çatır.

Çara qumlarını Çara və Novaya Çara kəndindən aydın görmək olur. Sibir səhrasına getməyin ən uyğun fəsli qışdır. Ancaq bu yerlərdə hava sərtdir və qışda temperatur mənfi 50 dərəcəyə qədər düşə bilir. Yaz aylarında Çara çayının Orta Sakukan qolunun gözlənilməz suyu Çara səhrasına gedən yolu bağlayır.

Çətin yola baxmayaraq, Çara qumları məşhur bir turistik məkandır və yerli sakinlər üçün ən sevimli yay tətili yeridir.

**"Azərbaycan Ordusu"**

# İdman

## Gimnastlarımız beynəlxalq turnirdə qızıl medal qazanıblar



Batut gimnastikası üzrə "Latvian Cup" beynəlxalq turnirində Azərbaycan yığma komandasının üzvləri uğurla çıxış ediblər.

Gimnastlarımız Nicat Mirzəyev və Ammar Baxşaliyev fərdi proqramda qızıl medala layiq görülüblər.

Yarış Latviyanın paytaxtı Riqa şəhərində keçirilib.

## Gənc karateçilərimiz dünya çempionatını dörd medalla başa vurublar



Türkiyənin Konya şəhərində yeniyetmə və gənclər arasında dünya çempionatının son günündə komandamız daha bir qızıl medal qazanıb.

18-20 yaşlı gənclər arasında Əminağa Quliyev (60 kiloqram) həlledici mərhələdə rəqibinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Bundan əvvəl gənclərin yarışında (16-17 yaş) Fərid Savadov (55 kiloqram) qızıl, Rəşid Süleymanov (68 kiloqram) və yeniyetmələrdə (14-15 yaş) İsmayıl Xamoyev (52 kiloqram) bürünc medala sahib olublar. Beləliklə, 2 qızıl, 2 bürünc medala sahib olan yığmamız ümumi komanda hesabında 6-cı yeri tutub.

## Azərbaycan avarçəkəni Avropa çempionu olub



İspaniyanın San Sebastian şəhərində təşkil edilən sahil avarçəkməsi üzrə Avropa çempionatında 4000 metr məsafəyə yürüşlərin qalibləri müəyyənləşib.

Azərbaycanı qitə birinciliyində Diana Dimçenko təmsil edib. "Baku" avarçəkmə klubu adından yarışan Diana Dimçenko mübarizəyə yarımfinal mərhələsindən başlayıb. O, bu mərhələdə ən yaxşı nəticəni göstərib. 4000 metr məsafəni 22 dəqiqə, 56,72 saniyəyə qət edən idmançımız finiş xəttinə birinci çatıb. Bununla əsas finala vəsiqəni təmin edən Diana Dimçenko finalda da uğurlu çıxış edib.

İspaniyalı rəqibi Qonzales Karotanı 5 saniyə qabaqlayan təmsilçimiz sahil avarçəkməsi üzrə Avropa çempionu adına layiq görülüb.

Belə ki, Diana Dimçenko sahil avarçəkməsi üzrə Avropa çempionu adına layiq görülən ilk idmançımızdır. Həmçinin Diana Dimçenko Uelsin Pembrukşir şəhərində təşkil edilən sahil avarçəkməsi üzrə sonuncu dünya çempionatında Azərbaycan bayrağı altında gümüş medal qazanıb.

## Gənc cüdoçularımız 3 medal qazanıblar

CADETS WORLD JUDO CHAMPIONSHIPS SARAJEVO 2022

Bosniya və Herseqovinanın Sarayevo şəhərində 23 yaşadək gənclər arasında Avropa çempionatına Azərbaycan cüdoçuları uğurla start veriblər.

Yarışın birinci günündə komandamız 1 qızıl, 2 gümüş medal qazanıb. Qızıl medalı yığmamızın aktivinə oğlanlar arasında mübarizə aparan Nazir Talıbov (60 kq) yazdırıb. Həmçinin çəki dərəcəsində Kənan İsmayılov və qızların yarışında iştirak edən Könül Əliyeva (48 kq) gümüş medal qazanıblar. Bu nəticə ilə yığmamız ümumi hesabda birinci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir İmanov Mehrab Yadulla oğluna məxsus SQ № 0015076 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş İsmayılov Telman Ayaz oğluna məxsus AD № 0041838 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1019
Nüsxə 4740